RAFİQ QURBANOV
*BDU-nun dosenti*

# AZƏRBAYCAN NEFT SƏNAYESİ TARİXİNDƏN
## (XX əsrin 80-ci illərinin ikinci yarısı)

80-ci illərin birinci yarısında ölkə neft sənayesində yaranmış vəziyyəti nəzərə alan ali partiya və hökumət bu sahədəki geriliyi aradan qaldırmaq üçün konkret vəzifələr işləyib hazırladı. Partiyanın ali məclisində qeyd edilirdi ki, bu gün bütün xalqın ümdə vəzifəsi iqtisadiyyatın inkişafında əlverişsiz meylləri qətiyyətlə aradan qaldırmaq, ona lazımi dinamizmi vermək, kütlələrin təşəbbüskarlığına və yaradıcılığına, əsl inqilabi dəyişikliklərə meydan açmaqdır.[1]

Neft sənayesində yol verilmiş qüsurların iqtisadiyyatımızda çətinliklər törətdiyini nəzərə alaraq, neft-qaz mədənləri, qazma, geoloji kəşfiyyat və digər məqsədlər üçün yüksək keyfiyyətli avadanlığın və onun ehtiyat hissələrinin buraxılışını genişləndirdi. Dağıdıcı komponentləri çox olan qazıntı yataqlarının işlədilməsi üçün qaz və neft emalı avadanlığı və mədən avadanlığı komplekslərinin istehsalı xeyli artırıldı.

Neftayırma sənayesində neft emalının daha da yaxşılaşdırılması, motor yanacaqları, neft kimyası və digər sahələr çün xammal istehsalı xeyli genişləndirildi. Azərbaycanda sənaye məhsulunun 22-25 faiz artırılması, neft kimyası sənayevinin daha da inkişaf etdirilməsi, Xəzər dənizində və respublikanın qərb rayonlarında neft kəşfiyyatı və istismarının genişləndirilməsi nəzərdə tutuldu.

80-ci illərin ikinci yarısında Azərbaycan neft və qaz sənayesinin işini daha yaxşı təmin etmək üçün, əvvəlki beş ilə nisbətən 1,5 dəfə çox kapital qoyulması, qazma işlərinin 40 faiz artırılması qərara alındı.[2] Nəticədə 80-ci illərin sonuna qədər neft hasilatının 14-15 mil. tona çatdırılması nəzərdə tutuldu. Burada əvvəlki beş il illə müqayisədə 1-1,5 milyon ton artıq demək idi.

Dənizdə neft və qaz hasilatının gələcək inkişafı və qarşıya qeyd olunuryulmuş vəzifələrin yerinə yetirilməsi ilk növbədə stasionar dərinlik özülləri zavodunun iş prinsipindən asılı idi. Hansı ki, həmin dövrdə müəssisənin layihə gücünə çatdırılması 6 ilə nəzərdə tutulmuşdu. Əlbəttə işin belə təşkili ilə 1990-cı ilə qədər Xəzərdənizneftqazsənaye birliyi üzrə neft hasilatını 10-10,5 milyon tona çatdırmaq bir qədər qeyri real səslənirdi.

Neftemalı sənayesində neft emalının daha da yaxşılaşdırılması və motor yanacaqlarının, sürtkü yağlarının, habelə kimya və neft kimiyası üçün xammal istehsalının xeyli artırılması Neftayırma və Neft Kimyası Sənayesi Nazirliyinin qarşısında mühüm vəzifə kimi qoyulmuşdu. Nəticədə emal çeşidində açıq rəngli neft məhsulları buraxılışını artırmaq, emalın dərinliyini 53 faizdən 65 faizə qaldırmaq və yüksək keyfiyyət kateqoriyalı məhsul buraxılışını 55 faizə çatdırmaq nəzərdə tutulmuşdu.

Beləliklə 80-ci illərin ikinci yarısında respublika hökuməti Azərbaycan neftçiləri qarşısında nəinki bu sahənin işində yaranmış geriliyi aradan qaldırıb hasilatı sabitləşdirmək, həm də elmi tərəqqinin gücünə, yeni təsərrüfatçılıq metodlarına arxalanaraq bütün istiqamətlərdə işləri yenidən qürmaq və iqtisadiyyatımızın bu vacib sahəsinin inkişafını sürətləndirmək yolu ilə daha yüksək hasilat səviyyəsinə çatmaq, bütün işləri keyfiyyətcə yeni mərhələyə qaldırmaq kimi məsul, çətin və obyekitiv vəzmifələr qoymuşdur.

1985-ci ilin sentyabrında Bakıda sənaye müəssisələri briqadirlərinin birinci respublika toplanışı keçirildi. Toplanışda Azərbaycan sənayesində əməyin təşkili və həvəsləndirilməsinin briqada formasının vəziyyəti və daha da təkmilləşdirilməsi məsələləri müzakirə edildi. Respublika sənaye əməkçilərinə xüsusi müraciət qəbul edildi.[3]

1986-cı il iyulun 24-25-də Azərneft, Xəzərdənizneftqazsənaye istehsalat birlikləri və Azərbaycan Elmlər Akademiyasının yer haqqında elmlər bölməsinin, Azərbaycan şəraitində qazma işlərinin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına həsr olunmuş elmi praktik konfransı keçirilmişdir (2-1986, №7, s. 63-64).

Həmin dövrdə Azərbaycan alimlərinin neft sənayesinin inkişafındakı rolu xeyli güclənmişdi. Hələ 1984-cü ildə Azərbaycan Elmlər Akademiyasının akademiki Ş.F.Mehdiyev azərbaycanlı neftçi-alimləri içərisində birinci olaraq Beynəlxalq geoloji elmlər ittifaqının Geoloji elmlərin tarixi üzrə Beynəlxalq komissiyasının (İNİQEO) müxbir üzvü seçilmişdi (2-1985, №1, s.62).

80-ci illərin ikinci yarısının ilk illərindən Azərbaycan neftçiləri müasir texnoloji təcrübəni tətbiq etməklə, texniki yenidənqurma hesabına bir sıra müvəffəqiyyətlər qazanmışdılar. Dəniz neftçiləri tərəfindən yeni kəşf olunmuş 28 aprel, Əltdəniz, 8 mart və digər yataqların işlənilməsi genişləndirilmiş, Şah-dəniz, Andreyev bankəsi, 26 Bakı komissarı adına, Abalıq kimi yataqlarda axtarış işləri aparılmışdı. 1986-cı ilin 8 ayı ərzində quruda və dənizdəki yataqlarda 30 mindən artıq geoloji-texnoloji tədbir həyata keçirilmişdir. XXII partiya qurultayı adına birlik, N.Nərimanov adına və Orconigidzeneft neft və qazçıxarma idarələri, Qumdəniz və Əlibayramlı kəşfiyyat qazma idarələri və Xəzərdənizneftqazsənaye tresti 1986-cı ildə neft və qaz sənayesi üzrə Ümumittifaq sosializm yarışında qalib hesab olunmuşdular (2-1986, №9, s.3).

1986-cı ildə Azneft İstehsalat Birliyində neft hasilatının bütün sahələrində işlərin keyfiyyətinin kökündən yaxşılaşdırılması, müəssisənin iqtisadiyyatının təkmilləşdirilməsi üzrə tədbirlər kompleksi işlənib hazırlanmışdır. İl ərzində belə və başqa tədbirlərin həyata keçirilməsi, birlik üzrə əsas texniki-iqtisadi göstəricilər planlarını artıqlaması ilə ödəməyə imkan vermişdir. İllik neft hasilatı və təhvili planına 100,1 faiz əməl olunmuşdur. Plandan əlavə 3979 ton neft, 25,6 milyon kub-metr çox qaz təhvil verilmişdir. 1986-cı ildə Azneftin mədənlərində 33,1 min geoloji-texniki tədbir həyata keçirilmişdir ki, bu da planda nəzərdə tutulduğundan 22,6 faiz çox idi.

Quyu fondunu sağlamlaşdırmaq üçün 2800 ədəd əsaslı təmir işi görülmüşdür ki, bu da illik planın 112,1 faiz yerinə yetirilməsi demək idi.

Layların neftveriminin yüksəldilməsinin yeni metodlarının tətbiqinin genişləndirilməsi üzrə müəyyən işlər görülmüşdü. İstilik-buxar təsiri, laydaxili yanma, layların aktiv səth maddələrlə doldurulması, yeni mütərəqqi sistemlərin tətbiqi üzrə görlən işlər hesabına, nəticədə planda nəzərdə tutulan 152,5min ton əvəzinə Azneft mədənlərindən 1986-cı ildə 173 min ton neft çıxarılmışdır[4].

Azneft birliyi üzrə qəzasız və sürətli qazma uğrunda zərbəçi əmək yarışında Əlibayramlı və Kürsəngi kəşfiyyat qazma idarəsinin kollektivi fərqlənmişdilər.

1986-cı ildə Azneft birliyi ümumi və reallaşdırılmış məhsul üzrə plana 100,5 faiz, əmək məhsuldarlığı üzrə plana isə 101,1 faiz əməl etmişdir. Lakin 1985-ci ilə nisbətən texniki-iqtisadi göstəricilərin bir qədər yaxşılaşdırılmasına baxmayaraq, istehsalın səmərəliliyin artırılmasının heç də bütün ehtiyat mənbələrindən tam istifadə olunmamışdır. Məsələn, Şirvanneftdə neft hasilatı planı 9,6 min ton kəsir-

də qalmışdır. Ümumilikdə birlik üzrə 1986-cı ildə cəmi 344 quyu istismara verilmiş, 297 quyu isə fəaliyyətini dayandırmışdır.[5]

Müxtəlif texniki-mühəndis işlərinin yerinə yetirilməsi zamanı buraxılmış təsərrüfatsızlıq, israfçılıq nəticəsində 11 NQÇİ (neft qaz çıxarma idarəsi) -dən 6-da əsas məhsulun maya dəyəri bahalaşmışdır. Nəticədə birlik üzrə maya dəyəri dövlət planı yerinə yetirilməmişdir.

Buna baxmayaraq Azneft birliyi üzrə qazma işlərində vəziyyət bir qədər yaxşı olmuşdur. Belə ki, 1985-ci illə müqayisədə 21,1 min metr artıq qazma işi görülmüş, 16 quyu çox istifadəyə verilmişdir. Lakin, burada ancaq istismar qazması üzrə vəziyyət yaxşı olmuşdur. Kəşfiyyat qazması üzrə işlərin vəziyyəti qənaətbəxş olmamışdı. İstehsalın gələcək inkişafının xeyli dərəcədə asılı olduğu bu göstərici üzrə illik plana cəmi 74 faiz əməl olunmuşdur. Səkkiz kəşfiyyat qazma idarəsindən heç biri illik planı yerinə yetirə bilməmişdir.

Kəşfiyyat qazmasında yaranmış vəziyyətin başlıca səbəbləri işlərin təşkilində buraxılan nöqsanlar, əmək və texnoloji intizamın pozulması, yeni kəşfiyyat sahələrinin çox ləng abadlaşdırılmasından ibarət olmuşdur. Bu səbəbdən planda nəzərdə tutulan 23 sahədən cəmi 7-də, 1986-cı ildə 4 sahə əvəzinə 3-də kəşfiyyat işləri aparılmışıdr (4-1987, №1, s.4).

Planda nəzərdə tutulan 100 min metr kəşfiyyat qazma işindən 59 min metri Kür-İori vadisində, Yevlax-Ağcabədi əyrisində görülməli olduğu halda, əslində cəmi 39 min metr qazma işi görülmüşdür. Nəticədə hasilatın artım planının yerinə yetirilməsini təmin etməli 23 quyudan cəmi 12-də işlər başa çatdırılmışdır.

1986-cı il ərzində heç bir yeni mədən, yeni neft yatağı aşkara çıxarılmamışdır. Birlik üzrə 1986-cı ildə əsaslı kapital qoyuluşu planına cəmi 97,1 faiz əməl olunmuşdur.

1986-cı ildə Azneft birliyi üzrə 70 elmi-texniki tədbir həyata keçirilmişdir və bunun iqtisadi səmərəsi 10 mil.man. təşkil etmişdir. Həmin dövrdə Azneft birliyinin başlıca vəzifəsi neft hasilatının sabitləşdirilməsini və 1989-cu ildən etibarən hasilatın artırılmasını təmin etmək idi. Bu əsas vəzifəni həyata keçirmək üçün Azneft birliyində 188 quyu istifadəyə verilməli, 330 min metr istismar, 115 min metr kəşfiyyat qazması aparılması nəzərdə tutulmuşdu. 1987-ci il yanvarın 1-dən etibarən Azneft istehsalat birliyi yeni təsərrüfatçılıq şəraitinə keçirilmişdir (4-1987, №1, s.7).

İstehsaldaxili təsərrüfat hesabı prinsipləri əsasında Birliyin həm hüquq və müstəqilliyi, həm də planların yerinə yetirilməsi üçün məsuliyyəti xeyli artmışdır.

Həmin dövrdə Azərbaycan neft-qazçıxarma sənayesinin aparıcı sahələrindən biri də Xəzərdənizneftqazsənaye birliyi idi. Hansı ki, birlik gələcəkdə Azərbaycan neftinin 3/4-nü verməli idi. (Artıq bu gün reallığa çevrilmişdir). Birlik 80-ci illərin ikinci yarısının ilk ilində nef hasilatını 1985-ci ilə nisbətən 199 min ton artıq yerinə yetirmişdir. Neft hasilatının yüksək sürətli artımı, plan və öhdəliklərin sabit surətdə yerinə yetirilməsi, texniki yenidən qurma üzrə başlanmış olan işin, yeni perspektivli yataqların istifadəyə verilməsinin nəticəsi olmuşdu.[6]

Lakin, buna baxmayaraq işdə nöqsanlara da yol verilmişdi. Belə ki, qazma işləri üzrə dövlət planı cəmi 83,8 faiz yerinə yetirilmişdi. Halbuki təcrübə göstərmişdi ki, qazmada ehtiyac mənbələri çoxdur. 1985-ci ildə 25 briqadanın illik planı vaxtından xeyli qabaq yerinə yetirməsi buna sübutdur.

1986-cı ildə təkcə 28 aprel yatağında neft hasilatı 1985-ci ilə nisbətən 930 min ton (1,3 dəfə) artmışdır. Qalan yataqlar üzrə ümumi hasilat planı ödənilsə də, 1985-ci ilə nisbətən 11,2 faiz azalmışdır. Hasilatın azalması ən çox SSRİ-nin

50 illiyi, N.Nərimanov adına və Artyomneft NQÇİ-də olmuşdur. Planda nəzərdə tutulmuş 64 quyu əvəzinə cəmisi 58 dayanmış quyu yenidən istifadəyə verilmişdir.

1987-ci ildə Xəzərdə 17 axtarış və kəşfiyyat quyusunun tikilişi başa çatdırılmalı idi. Xəzər neftçiləri həmin ildə 315 min metr qazma işi aparmalı, il ərzində 10,3 mln. ton neft hasil olunmalı idi ki, bu da 1986-cı ilə nisbətən 500 min ton çox demək idi. Bu məqsədlə yeni perspektivli yataqlarda 146 min metr istismar qazmasının aparılması, 53 quyunun istismara verilməsi nəzərdə tutulmuşdu. Köhnə yataqlarda 3 minədək geoloji-texniki tədbir görməklə əlavə olaraq 600 min ton neft əldə olunmalı idi.

Neft hasilatının sürətlə artırılmasına bütün təsərrüfat sisteminin ciddi surətdə yenidən qurulması yolu ilə nail olmaq olardı. Bu baxımdan Xəzərdənizneftqazsənaye istehsal birliyinin 1987-ci il yanvarın birindən yeni təsərrüfatçılıq şəraitinə keçirilməsinin mühüm əhəmiyyəti olmuşdu. Fəhlə və qulluqçuların əmək haqqı 25-35 faiz artırılmış, gəlirdən həvəsləndirmə fonduna çoxlu ayırmalar edilmişdir (6-1987, №1, s.8.).

Xəzər dənizçilərinin işinin müvəffəqiyyəti bir çox yataqlarda məhz dərinlik özülləri zavodunun fəaliyyətindən asılı olmuşdur. 1984-cü ilin martında bir növbəsi işə düşmüş və bu nəhəng zavod artıq 1987-ci ildə 100 metrlik dərinlikdə qoyulan özüllər istehsal etmək qabiliyyətinə malik idi. Zavodda 147 metrlik dərinliyi hesablanmış 12 min tonluq çoxbuloklu platformalar quraşdırılmışdır. Bundan əlavə zavod 150-200 metrlik dərinlikdə qoyula biləcək 7 platforma düzəldib dəniz neftçilərinə verməli idi.[7]

Azərbaycan Respublikası Mərkəzi Statistika İdarəsinin məlumatına görə 1987-ci ilin birinci kvartalında Azneft, həm də Xəzərdənizneftqazsənaye Birlikləri satlıq məhsulun artımı üzrə nəinki planı ödəmiş, əksinə heç 1986-cı ilin müvafiq göstəriciləri səviyyəsinə çata bilməmişdilər. Neftayırma və Neft Kimyası Sənayesinin müəssisələri üzrə də vəziyyət eyni olmuşdur.[8] Eyni zamanda kəşfiyyat qazması üzrə dövlət planı kəsirlə yerinə yetirilmişdir. Bu gerilik Azneft üzrə xüsusilə güclü (57 faiz) olmuşdur.[9]

Ümumiyyətlə 1987-ci ilin ilk üç ayı ərzində neft hasilatına dair plan yerinə yetirilməmiş və 1986-cı ilin müvafiq dövrünə nisbətən geriliyə yol verilmişdir. Planda nəzərdə tutulduğundan 230 min ton az, o cümlədən Xəzərdənizneftqazsənaye Birliyi üzrə 203 min ton az neft çıxarılmışdır (8-1987, s.30 aprel).

80-ci illərdə Respublikanın sosial-iqtisadi sistemində böhranlı vəziyyət ən yüksək həddə çatmışdı. Bu ilk növbədə onunla bağlı idi ki, iqtisadi vəziyyətdə əmələ gələn dəyişikliklər həyatın bütün sahələrində dərin irəliləyişlərin zəruriliyi vaxtında və lazımınca qiymətləndirilməmiş, onların həyata keçirilməsində lazımi qətiyyət göstərilməmişdir. Bu Azərbaycan neft sənayesinin inkişaf vəziyyətini, müəyyən baxımdan çox dəqiq əks etdirirdi. 80-ci illərdə buraxılmış nöqsanların nəticəsində elə bir vəziyyət yaranmışdır ki, iqtisadiyyatımızın ən qocaman və aparıcı sahələrindən biri olan neft sənayesi həmin dövrdə nəinki öz qarşısında duran vəzifələrin yerinə yetirilməsi, hətta bu vəzifələrin öhdəsindən gələ bilməmiş, üstəlik ölkə neft-yanacaq bazasına 6 milyon ton neft borclu qalmışdır (8-1987, 30 aprel). Bütün bunlar axtarış-kəşfiyyat işlərinin səmərəsiz təşkilinin, yeni perspektivli yataqların ləng istifadəyə verilməsinin, qazmanın xüsusən də kəşfiyyat qazmasının günün tələblərindən xeyli geridə qalmasının, quyu fondu üzərində işin məsuliyyətsiz qurulmasının və başqa səbəblərin labüd nəticəsi olmuşdur.

80-ci illərin ortalarında Azərbaycan neft sənayesinin inkişafının təhlili göstərir ki, bəzi müvəffəqiyyətlərə baxmayaraq, bu mühüm istehsal sahəsində köhnə meyllərin tamamilə aradan qaldırılmasına nail olunmamışdır.

Lakin həyat göstərdi ki, «şanlı inqilabi keçmişə», «şərəfli əmək qələbələri ilə yazılmış tarix»ə malik olan Azərbaycan neft sənayesi öz qarşısında duran vəzifələrin öhdəsindən, Ulu öndərimiz H.Ə.Əliyevin respublikada ikinci dəfə hakimiyyətə gəlişindən sonra layiqincə gəldi. Bu gün Azərbaycan neftinin sorağı dünyanın hər yerindən gəlir. Respublikamızın çiçəklənməsində Azərbaycan nefti aparıcı sahə təşkil edir.

### *MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT*

1.Sov.İKP XXVII qurultayının materialları. Bakı, 1986, s.26.
2.Azərbaycan neft təsərrüfatı, 1986, №9, s.2.
3.Вышка, 1985, 24 сентября.
4.Джафаров А.А. Закрепит достигнутых успех // Азярбайжан нефт тясярруфаты, 1987, №1, с.1-6.
5.Бакинский рабочий, 1987, 16 феврал.
6.Аббасов К.А. Задачи ВПО каспморнефтгазпром в новых условиях хозяйствования // Azərbaycan neft təsərrüfatı, 1987, №1, s.7-10.
7.Гольцов В.Т. Задача ключевого значения // Азярбайжан нефт тясярруфаты, 1987, №1.
8.Коммунист, 1987, 30 апрел.
9.Вышка, 1987, 9 апреля.

**Р.О.ГУРБАНОВ**

### ИЗ ИСТОРИИ НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА
**(вторая половина 80-х гг. XX века)**

Занимающая одну из ведущих отраслей в Азербайджане это нефтяная промышленность – «Азнефть» и «Касморнефть» - нефтегазовые обжединения. Несмотря на определенные успехи в изучаемый период выполнение государственного плана с недостатками, бесхозяйственность и безответственность повлекли к серьезным недостаткам.

Во второй половине 80-х годов капиталовложения для развития нефтяной и газовой промышленности по сравнению с предыдущим пятилетием увеличились 1,5 раза. Азербайджанское правительство потребовало из нефтяников не только ликвидировать отставание отрасли, но и за счет научно-технического прогресса перестроить работу по всем направлениям. Руководствуясь этим нефтяники в 80-е годы добились разработки некоторых месторождений. В этом особенно отличилось промышленное обжединение «Азнефть».

**R.O.QURBANOV**

### FROM A HISTORY OF PETROLEUM INDUSTRY IN AZERBAIJAN
**(the second part 80-th years of XX century)**

Occupying from one of leader branch in Azerbaijan Republic, - this is petroleum industry – "Azerneft" and "Khazarneftqaz" – oil and association. In spite of definite success in considering period fulfilled the state plan with defiance and irresponsibility entail to seriously.

In second half part of 80-th year's investment for development of petroleum oil and qaz industry in comparison with previous live years increased in 1,5 time. Azerbaijan state demanded by oil industry workers not only to catch up with brunch, but and including scientific – technical progress to improve the work by oil direction. Leading with this oil industry workers in 80 years they reached mine workings. In this deforested industry association "Azneft".

***Rəyçilər: t.e.d.Q.Əliyev, t.e.d.A.Məmmədov.***

***BDU Tarix fakültəsi Türk və Qafqaz xalqları tarixi kafedrasının 18 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***